# XIX əsrin əvvəllərində İrəvan xanlığının siyasi vəziyyətinə dair

**Fəridə Abbasova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** farida.abbasova1995@mail.ru

**Rəyçilər:** t.ü.f.d., dos. E.T. Qarayev,
t.ü.f.d., dos. Ə.B. Ələkbərov

**Açar sözlər:** tarix, imperiya, xanlıq, ərazi, qoşun, inzibati, siyasət, vəziyyət
**Ключевые слова:** история, империя, ханство, территория, армия, администрация, политика, ситуация
**Key words:** history, empire, khanate, territory, army, administrative, politics, situation

XIX əsrin başlanğıcında İrəvan xanlığının xarici siyasətinin aparıcı xəttini xanlığın öz müstəqilliyini qorumaq uğrunda Rusiya imperiyasına qarşı apardığı mübarizə təşkil etmişdir.

Erməni və əksər rus tarixşünaslığında real tarix saxtalaşdırılaraq Azərbaycan dövləti olan İrəvan xanlığının Rusiya tərəfindən işğalı guya "Şərqi Ermənistan"ın və Ermənistanın "Rusiyaya birləşdirilməsi" kimi təqdim edilirdi. Əslində isə XIX əsrin əvvəlində Cənubi Qafqazın Rusiya tərəfindən işğalı zamanı bu ərazidə heç bir erməni dövləti yox idi. Çar Rusiyası tərəfindən işğal olunan "Ermənistan" deyil, məhz Azərbaycan dövləti olan İrəvan xanlığının ərazisi idi, yəni Azərbaycan torpağı idi [1, s 285].

1804-1813-cü illərdə Azərbaycan torpaqlarının işğalı uğrunda gedən Birinci Rusiya-Qacar müharibəsi zamanı İrəvan xanlığı iki dəfə Rusiya qoşunlarının güclü hücumuna məruz qaldı. Lakin İrəvan xanlığı Rusiyaya tabe olmadı. Xanlığın əhalisi müdrik və cəsur dövlət xadimi olan Məhəmməd xan Qacarın və Hüseynqulu xan Qacarın başçılığı ilə çar qoşunlarına qəhrəmanlıqla müqavimət göstərdi. Lakin çar Rusiyası Osmanlı dövlətinə qaşı mübarizədə son dərəcə mühüm hərbi-strateji əhəmiyyətə malik olan bu Azərbaycan xanlığının ərazisini işğal etmək planından əl çəkmədi [1, s. 287].

1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının rəsmi surətdə Rusiyaya birləşdirilməsi haqqında çar manifesti elan olundu. Manifestə görə Qafqazdakı rus qoşunlarının baş komandanı və mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Azərbaycanın Kartli-Kaxetiya çarlığının vassal asılılığında olan Borçalı, Qazax, Şəmşəddil sultanlıqları ilə bərabər, Pəmbək və Şörəyel də bu quberniyanın tərkibinə və qeyri-qanuni olaraq Rusiyanın tərkibinə daxil edildi. [2, s. 19-27]

Azərbaycan torpaqlarının o cümlədən İrəvan xanlığına məxsus ola Şörəyel və Pəmbək sultanlıqlarının qeyri-qanuni Rusiya tərəfindən işğalı İrəvan və Gəncə xanlıqlarının kəskin narazılığına səbəb oldu. [3, sənəd 801, 802, s. 598-599; 123, 28; 41, II, 448].

Azərbaycan xanlıqlarının əksəriyyəti o cümlədən Rusiyanın hərbi-siyasi təzyiqinə daha çox məruz qalan irəvanlı Məhəmməd xan Qacar və naxçıvanlı Kəlibəli xan öz müstəqilliklərini qoruyub saxlamağa əzmində idilər. [1, s 288]

Bütün bunlara baxmayaraq, Rusiya əsas diqqətini İrəvan xanlığına yönəltmişdi. Rusiya xarici siyasət idarələrində İran, Türkiyə, Gürcüstanla həmsərhəd olan İrəvan xanlığının işğalına xüsusi önəm verilir, "xüsusilə Tiflis-Təbriz tranzit yolunun üstündə yerləşən İrəvan qalasının alınmasının vacibliyi" qızğın müzakirə olunurdu. Rusiya İrəvan xanlığına strateji baxımdan mühüm bir ərazi kimi yanaşmaqla bərabər bu Azərbaycan torpağını Gürcüstandan

sakitliyin bərpa olunması, Cənubi Qafqazda İran və Türkiyənin siyasi təsir dairəsinin zəiflədilməsində ötrü strateji bir istinadgah hesab edirdi. Məhz buna görə I Aleksandrın fərmanında Rusiyaya tabe ediləcək ərazilər sırasında İrəvan xanlığının adı birinci çəkilirdi. [1, s 289]

Cənubi Qafqazda rus ordusunun baş komandanı K.F.Knorinq gürcü əsilli P.D.Sisianovla əvəz olunduqdan sonra (1802-ci il sentyabr) Rusiyanın bu bölgədəki siyasəti daha da sərtləşdi. Yenicə baş komandan təyin olunan P.D.Sisianov İrəvan xanlığını ələ keçirmək və ermənilərin etimadını doğrultmaq məqsədilə Tehranda həbsdə saxlanılan Danili İrəvana qaytarmağa qərara aldi. Rus generalı bunun üçün öncə müxtəlif diplomatik vasitələrə əl atdı. O, 1803-cü il fevralın əvvəlində İrəvan xanına göndərdiyi məktubda xana səmimi dostluq təklif edərək onu Rusiya təbəəliyinə keçməyə çağırırdı. Məktubun sonunda isə böyük sultan tərəfindən bütün ermənilərin patriarxı təsdiq edilən Danil haqqında verilən fərmanın dəqiq icra olunmasını tələb edirdi. Rusiya imperiyası ilə münasibətləri gərginləşdirmək istəməyən Məhəmməd xan Danilin həbsdən azad olunması haqda göstəriş versə, də onu yenidən patriarx təyin etmir və öz nəzarəti altında saxlayırdı. [1, s. 291]

P.D.Sisianov 1803-cü il fevralın 9-da knyaz Tomas Orbelianinin başçılığı altında İrəvana xüsusi nümayəndə heyəti göndərdi. Heyət Məhəmməd xana və Kəlbəli xana Danili katalikos vəzifəsinə təyin edilməsinə köməklik göstərməsi haqqında qraf S.R.Voronsovun və P.D.Sisianovun adından yazılmış xüsusi məktub gətirmişdi. Lakin təlimata əsasən heyət İrəvan haqqında gizli məlumat toplamalı idi. Bu heyətin tərkibinə daxil olan kapitan Çuykoya verilən təlimata görə o İrəvan qalasının möhkəm və zəif yerlərini Kartli-Kaxetiyadan İrəvana gedən əlverişli yolları öyrənərək kağız üzərinə köçürülməli idi. Lakin göndərilən heyətin fəaliyyəti heç bir nətinə vermədi. Martın 7-də geri qaydan heyət Məhəmməd xandan P.D.Sisanova məktub gətirmişdi. Məktubda xan rus komandalığının bütün tələblərini rədd edirdi. [4, s. 146]

Rus komandanlığının niyyətindən xəbərdar olan Məhəmməd xan rus qoşunu ilə üzləşəcəyini dərk edərək özünə müttəfiq axtarmaq qərarına aldı. O, Osmanlı sarayına müraciət edərək rus qoşununa qarşı mübarizə aparmaq üçün kömək istədi. Lakin Osmalı dövləti xanın nümayəndələrinə rədd cavabı vermişdi. [5, s 874-875]

Bəhs olunan dövrdə Rusiya qoşunlarının Car-Balakəni (1803-cü il, mart-aprel), çətin və qanlı döyüşlərdən sonra Gəncə xanlığı(1804-cü il, 3 yanvar) işğal etməsi P.D.Sisianovun digər Azərbaycan xanlıqlarını ələ keçirməyə iştahasını daha da artırdı. O, İrəvan və Qarabağ xanlarının yanına nümayəndə göndərərək onlara döyüşsüz təslim olaraq Rusiya dövlətinin itaətini qəbul etmələrini tələb etdi . Lakin bu danışıqlar heç bir natıcə vermədi. [1, s 290]

İrəvan xanının ağır vəziyyətindən istifadə etməklə məqsədinə nail olmağa çalışan P.D.Sisianov 1804-cü il mayın 10-da təkrarən Məhəmməd xan Qacara məktub göndərdi. Həmin məktubda çar generalı Məhəmməd xanı hədələyir və öz şərtlərini İrəvan xanının nəzərinə çatdırırdı: 1. Hər şeydən əvvəl Davidlə aparılan bütün danışıqlar kəsilməli və patriarx Danil öz yerinə bərpa olunmalıdır: 2. İrəvan qalası rus ordusuna təslim edilməlidir: 3. Xan rus imperiyasını öz dövləti kimi qəbul etməli və sədaqətli olacağına and içməlidir: 4. Xan 80 min rubl məbləğində xərac verməli və hər il bu xəracı iki müddətdə-birinci yarısısn Novruz bayramından bir gün keçdikdən sonra, ikinci yarısını isə iyul ayından sonra ödəməlidir. Əgər xan bu şərtlər daxilində bizə sadiq olarsa, əvvəla, öz hüququnda qalaca hakimiyyəti davam etdirəcəkdir: ikincisi, imperator onun təhlükəsizliyini təmin etmək üçün ona xanlıq hüququ barədə şəhadətnamə verecək, üçüncüsü, xanın ailəsi İrandan gətirilməsi üçün bütün imkanlardan istifadə ediləcəkdir. [4, s 149-150]

Danışıqlar yenə də heç bir nəticə vermədi. Bu dəfə Məhəmməd xan T.Orbelianiyə Rusiya təbəliyini qəbul etmədiyini qəti şəkildə bildirdi. Məhəmməd xandan rədd cavabı alan P.D.Sisianov İrəvana hücum planı hazırlamağa başladı. Artıq 1804-cü ilin mayında P.D.Sisianovun əmrinə əsasən İrəvana yürüş etməyə hazırlaşan müxtəlif növ seçmə qoşun hissələri hazır vəziyyətə gətirilərək Tiflisdə cəmləşdirməyə başladı. [1 s 293-294]

Gürcü əsilli çar generalı Sisianovun əsas məqsədi "İrəvan yürüşünü tezliklə başa çatdırmaq, bu vilayət Rusiyanın tərkibinə daxil etməklə yanaşı İranla baş verəcək müharibədən hərbi əməliyyat meydanını Gürcüstan sərhədlərindən uzaqlaşdırmaq idi". Bununla belə, hiyləgər çar generalı İrəvan xanına məktublar yazaraq onu gah şirnikləndirir, gah hədələyir, gah da dilə tutaraq müqavimətsiz təslim olmasını tələb edirdi. Şərtlər isə olduğu kimi qalırdı Danil Eçmiədzin patriarxı elan edilməli, David isə Tiflisə göndərilib rus komandanlığına təslim edilməli idi; bundan əlavə Məhəmməd xan İrəvan qalasında rus qoşunlarının yerləşdirilməsinə razılıq verməli, işğalçılara qarşı xərac ödəməli və sadiq qalacağı barədə and içməli idi. [1 s. 296]

Qeyd etmək lazımdır ki, bəhs olunan dövrdə İrəvan xanı olduqca mürəkkəb vəziyyət qarşısında qalmışdı. Məsələ onda idi ki mühüm strateji məntəqə olan İrəvan xanlığını Rusiya tərəfindən işğalına yol vermək istəməyən Qacarlar dövləti də xanlığın ərazisində ələ keçirməyə çalışırdı. Hər iki təcavüzkar-Qacarlar İranı həmdə Rusiya İrəvan xanlığını işğal etmək üçün bir-birini qabaqlamağa çalışırdı [4 s. 144-145].

**Məqalənin aktuallığı.** XIX əsrin əvvəllərində İrəvan xanlığında mövcud siyasi vəziyyətin araşdırılması və öyrənilməsi baxımından məqalə aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, qeyd olunan dövrdə siyasi vəziyyətin təhlili zamanı müxtəlif tədqiqatların nəticələrinə istinad olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009.
2. Дубровин Н.Закавказье от 1803-1806 года. СПб, 1886.
3. Arxiv sənədi. 801, 802, s. 598-599; 123, 28; 41, II, 448.
4. Elçin Qarayev. Azərbaycan İrəvan bölgəsinin tarixindən (XVIII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında) Bakı^ Mütərcim, 2016.
5. Отношение д.с.с Италинскаго к кн. Цицианову, от 2-го (14 го) ноябрь 1803 года. АКАК.,т.II, д. 1800.

**Ф. Аббасова**

## О политическом положении Ireванского ханства в начале XI века

### Резюме

В статье рассматривается политическая ситуация в Ireванском ханстве в начале XI

века. В то же время было кратко проинформировано о нападениях российских войск к Иреванскому ханству, их причинах и последствиях.

**F. Abbasova**

## About the political situation of the Iravan khanate in the early XI century

## Summary

The article examines the political situation in the Iravan khanate in the early XI century. At the same time, the Iravan khanate was briefly informed about the attacks of Russian troops, their causes and consequences.

**Redaksiyaya daxil olub:** 05.04.2019